*Unutsaq unudularıq*

# YERİ GÖRÜNƏN İNSAN



Hər dəfə Azərbaycan Müəllimlər İnstitutu Cəlilabad filialının qapılarından keçib içəri daxil olanda ilk öncə xatirimə gələn şəxs mərhum ağsaqqalımız Vədud Məmmədov olur. Onun işıqlı çöhrəsi, rəvan nitqi, söhbətlərimiz zamanı nəzərlərimi və diqqətimi cəlb etmiş xoş qılığı xatirəmdə canlanır.

Mən neçə-neçə insanla görüşüb söhbət etmişəm, etiraf edim ki, söhbətlərimin ən şirini, lətifi, mənalısı və məzmunlusu Vədud müəllimlə olub. Onu lap yaxından tanıyırdım, bütün tərcümeyi-halına yaxşı bələd idim. O, həyat yollarında öz zəhməti ilə yüksəlmişdi, heç kəsdən vəzifə tutmaq üçün kömək istəməmişdi.

Vədud Əhməd oğlu Məmmədov 1935-ci ildə Cəlilabad rayonunun Cəfərli kəndində anadan olmuşdur. Orta təhsil aldıqdan sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirmiş, bir müddət təhsil sahəsində çalışmışdı. 1983-cü ildə Cəlilabaddakı Sovxoz-texnikumda tədris işləri üzrə direktor müavini vəzifəsinə təyin olunmuş, bir neçə il həmin texnikumun direktoru vəzifəsində çalışmışdır. 2000-ci ildən Müəllimlər İnstitutu rayon filialının direktoru idi. 2002-ci ildə Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunda dissertantlığa qəbul olunmuş, 2010-cu ildə pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. O, 8 adda elmi əsərin müəllifi idi. Onun “Pedaqoji kadrların hazırlanmasına demoqrafik amillərin neqativ təsirinin aradan qaldırılması” monoqrafiyası müəllimlərin stolüstü kitabına çevrilmişdir. Vədud müəllim rayon ağsaqqallar şurasının sədri, rayon seçki komissiyasının rəhbəri kimi fəal ictimai iş aparırdı. Bir neçə dəfə bir sıra medallara, fəxri mükafatlara layiq görülmüşdü.

Bu qısa xülasə çox şeyi deyir. Vədud Məmmədov ömrü boyu Vətənə sədaqətdə şəxsi nümunə göstərdi, harada çalışdısa, elobanın başını ucaltdı, doğma yurdun ləyaqətini hər şeydən üstün tutdu. Yeniliklərin əksəriyyətinin təşəbbüskarı o olmuşdu. Rayonun birinci şəxslərindən başlamış ən kiçik işçilərə qədər hamı bir nəfər kimi Vədud müəllimin yaradıcı işini xüsusi qiymətləndirirdi, onun təşəbbüslərinə səs verirdilər, ideyalarının həyata keçirilməsinə kömək göstərirdilər.

Vədud müəllimin məsləkdaşları, əqidə yoldaşları, dostları və tanışları onun haqqında gözəl sözlər söyləyirlər. Aydın duyulur ki, belə söhbətlərin fövqündə bəzən istənilən sözləri tapmaq da müşkül olur. Belə insanlar haqqında danışmaq, həqiqətən də, çətindir. Bu cür yüksək və müstəqim mənalı sözlərə yalnız Vədud müəllim kimi şəxsiyyətlər layiq ola bilərlər. Vədud müəllim rayon ziyalıları arasında xüsusi hörməti və yeri olan bir insan idi.

Vədud müəllimin ömrünün işığı indi də doğma yurdun hər bir qarışına nur ələyir. 10 övladı, 31 nəvəsi, 12 nəticəsi vardır.

Bəli, Vədud müəllimin yoxluğu indi bizim hamımızı, xüsusən onu yaxından tanıyanların hamısını ağrıdır. Onun işıqlı siması, özünəməxsus layiqli yeri həmişə görünür.

**Sabir MUSTAFAYEV,**
**“Respublika”.**